# YENİ İNTRODUKSİYA OLUNMUŞ ŞAFTALI SORTLARININ QARABAĞIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İSTİFADƏSİNİN MÜMKÜNLÜYÜ

**Zəminə Sərhədova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu,*
*serhedova@inbox.ru*

Qarabağın işğaldan azad olunmuş ərazilərində şabalıdı, açıq şabalıdı, dağ-tünd şabalıdı, qəhvəyi dağ-meşə, qonur dağ-meşə, qaramtıl dağ-çəmən və s. torpaqlar geniş yayılmışdır. Qarabağda ən soyuq ayın orta temperaturu çox yumşaq (+2,5...$0^0$ C), yumşaq (0...-$5^0$C) şəraitdə keçir. Vegetasiya dövrünün isti aylarında (aprel-oktyabr) buxarlanma 400-800 mm aralığında olmaqla, iyun-sentyabr aylarında quraqlıq keçən günlərin sayı 5-25 gün və daha az olur. İl ərzində şaxtasız dövrün davamiyyəti 150-225 gün, havanın temperaturunun $0^0$C-dən aşağı olan günlərin sayı isə ərazi üzrə 10-100 gün gün təşkil edir. İşğaldan azad olunmuş ərazilərdə əncir, zoğal, yemişan, soyuğa çox davamlı qovaq, havanı zəhərli bakteriyalardan təmizləyən ardıc, qara rəngə çalan şam, ya küknar, süddən səkkiz dəfə qidalı qırmızımtıl fıstıq, gövdəsi düz və sarımtıla çalan çətirli bəzək ağacı göyrüş, palıd, vələs, çinar, qaraçöhrə, sərv, cökə, ağcaqayın və digər ağaclarla zəngindir. Burada meyvə ağaclarından başqa müalicə, qida əhəmiyyəti və vitaminlərlə zəngin göyəm, həmərsin, itburnu, qarağat, moruq və giləmeyvələr də geniş yayılmışdır. Ərazinin torpaq-iqlim şəraiti qədim zamanlardan bu ərazilərdə meyvə bitkilərindən alma, armud, nar, fındıq, qoz, gilas, ərik, şaftalı, alça, üzüm və s. becərilməsinə imkan vermişdir.

AR KTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnistitutu tərəfindən İspaniyadan introduksiya olunmuş şaftalı (nektarin) sortlarının Quba-Xaçmaz iqtisadi rayonunun torpaq-iqlim şəraitində aqrobioloji xüsusiyyətləri öyrənilmişdir. Tədqiqat işi 2018-2020-ci illərdə yerinə yetirilmiş və tədqiqata introduksiya olunmuş 18 şaftalı (nektarin) sortları cəlb olunmuşdur. Tədqiqata şaftalı (nektarin) bitkisinin introduksiya olunmuş - Meloks 26, Meloks 31, Meloks 37, Netiks 25, Netiks 28, Netiks 30, Netiks 34, Rediks 25, Rediks 27, Rediks 30, Rediks 2-110, Maliks 25, Maliks 36, Maliks 145, Quayoks 30, Quayoks 35, Qarteyro, Qardeta sortları və nərazrət sortu olaraq institutun seleksiya sortu – Fədai sortu cəlb olunmuşdur. Tədqiqat işi nəticəsində Fədai (n) və digər tədqiqat sortları ilə müqayisədə yüksək keyfiyyət göstəricilərinə və səmərəliliyinə görə Netiks-25, Rediks-25, Netiks-30, Meloks-31, Quayoks-35 və Qardeta sortları seçilmişdir. Bu sortların işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının, o cümlədən meyvəçilik sahəsinin inkişafı üçün yeni modern meyvə bağlarının təsisində istifadə olunmasını təklif edirik.